# Abadlaşdırma işlərinə başlanmışdır



Şəhərin Heydər Əliyev prospektinin yenidən qurulması və abadlaşdırılması işlərinə başlanmışdır.

Uzunluğu 9 km olan yolun 5 km hissəsi yenidən qurulur.

Layihəyə uyğun prospektdə ilkin olaraq 20000 m² piyada səkiləri, 12000 pm səki daşları, 5000 pm drenaj boruları, 189 pm istinad divarı tikiləcəkdir.

Bu günə kimi 35000 m² birinci lay asfalt örtük, 11000 m² piyada səkiləri, 8000 pm səki daşları, 1200 pm yağış drenaj boruları, 189 pm istinad divarı tikilmişdir.

Tikinti işləri başa çatdırıldıqdan sonra zəruri olan yerlərdə yol nişanları və məlumatverici lövhələr quraşdırılacaq. Həmçinin piyada zolaqlarının, yolcizgi və yolgöstərici xətlərin çəkilişi işləri aparılacaqdır.

Tikinti işlərini texnoloji ardıcıllıqla 10 №-li Yol İstismarı MMC həyata keçirir. Bunun üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunmuşdur.

**"Qəbələ"**

## Maraq dünyamız

# Əlifba sözü və onun ilk hərfləri necə əmələ gəlmişdir

Qədim Misir əhalisi öküzə sitayiş edir, ona əlif (tanrı) deyirdilər. Onlar ilahi qüvvənin öküzdə cəmləşdiyinə inandıqlarına görə heroqlif (şəkil) xəttində tanrı fikrini öküz başı ilə işarə edirdilər. Avropalıların A hərfi bu şəklin tərsinə çevrilmiş formasıdır. Ərəb əlifbasının yaradıcıları isə öküz başından ancaq bir buynuz şəklini saxlamaqla əlifbalarının ilk hərfi olan əlifi (I) icad etmişlər. Hərfin adı isə qədim misirlilərin tanrı sayaraq tapındıqları öküzə verdikləri ad kimi əlif olaraq saxlanılmışdır.

Yer kürəsi öküzün buynuzu və ya özü üzərində bərqərardır əfsanəsi də qədim misirlilərin öküzə sitayiş etmələrinin nəticəsidir.

**«Qəbələ».**

# Qəbələ» «Yagelloniya» - «Dinamo» cütünün qalibi ilə qarşılaşacaq

2017-2018-ci ilin mövsümündə UEFA Avropa Liqasında çıxış edəcək "Qəbələ"nin rəqibi müəyyənləşib. Ardıcıl 4-cü dəfə turnirdə qüvvəsini sınayacaq komandamız yarışa II təsnifat mərhələsindən başlayacaq. "Qəbələ" bu mərhələdə "Yagelloniya" (Polşa) - "Dinamo" (Batumi, Gürcüstan) cütünün qalibi ilə qarşılaşacaq.



Komandamız ilk oyununu iyulun 13-də evdə keçirəcək. Cavab görüşü isə iyulun 20-də səfərdə baş tutacaq.

I təsnifat mərhələsinin qarşılaşmaları iyunun 29-da və iyulun 6-da keçiriləcək.

Xatırladaq ki, "Qəbələ" avrokuboklarda debüt etdiyi 2014-2015 ci ilin mövsümündə mübarizəni I təsnifat mərhələsində dayandırıb, 2015-2016 və 2016-2017-ci illərin mövsümlərində 4 mərhələ adlayaraq qrupda çıxış edib.

# Humanizm naminə



Qəbələ şəhər 5 nömrəli tam orta məktəbində "Humanizm naminə" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə tibb elmləri üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin "İcmaya əsaslanan sağlamlıq" proqramının rəhbəri Mətanət Qaraxanova da iştirak etmişdir.

Müəllim və şagirdlərin maraqla izlədiyi tədbirdə Mətanət xanım Beynəlxalq Qızıl Xaç Komitəsinin və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tarixi və fəaliyyətinə, həmçinin sağlamlığa dair məruzələr etmiş, mövzu ətrafında çıxışlar dinlənilmişdir.

Tədbir dialoq şəklində davam etmiş, yekunda məktəbin fəal və imkansız şagirdlərinə Qızıl Aypara Cəmiyyəti rayon təşkilatı tərəfindən hədiyyə və yardım verilmişdir.

**✍ Şərqiyə ƏMRAHOVA, rayon təşkilatının əməkdaşı.**

# Limonun möcüzəsi



Gözəl ətri və rəngi olan limon A, B və C vitaminləri ilə zəngindir. Xərçəng xəstəliyi zamanı istifadə olunması xəstəliyin inkişafına mane olur. Qaraciyərdəki bütün xəstəliklərin dərmanıdır. Qanı təmizləyir.

Qrip və soyuqlamada çox faydalıdır. Mikrob öldürücü xüsusiyyətə malikdir. Dişəti xəstəliklərində də faydalıdır. Həmçinin ürək böhranı, ürək-damar narahatlıqları kimi xəstəliklərdən bədəni qoruyan bir antioksidandır.

Hər gün bir yemək qaşığı limon suyu içmək astmaya yaxşı kömək edir. Eləcə də limon suyu sümük əriməsinin qarşısını alır.

Limon suyu kəpək və yağlı saçlar üçün möcüzəvi təsir göstərir. Günəş altında qurudulmuş və sonradan üyüdülmüş limon qabığının saçlara tətbiqi eyni zamanda bədəni sərinlədir və baş ağrısını götürür.

Bu möcüzəvi meyvənin suyu balıq və ət üzərinə sıxıldıqda onlarda olan zərərverici bakteriyaları öldürür, həzm problemlərini aradan götürür...




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

*2017-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.*

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının DİSPLAY 28 oktyabr 1998-ciil tarixli DİSPLAY 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **İsrafilov Nazim Qıbıl oğluna** verilmiş JN seriyalı 2040 A nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ şəhər sakini **Xəlilov Əjdər Mirzə oğluna** 18 fevral 2014-cü il tarixdə verilmiş RX seriyalı 0316764 nömrəli (reyestr nömrəsi 406013014394, qeydiyyat nömrəsi 1914000740) Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **Dövlət reyestrindən çıxarış** və 18 fevral 2014-cü il tarixli AA seriyalı 002400 nömrəli (reyestr nömrəsi 406013014394) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Taleə Əfəndiyevaya** qardaşı

**ELMAN İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Redaktor
Varis Yaqubov

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1700*